# GÖYƏRÇİN

İSSN-0207-4710

12

2021



# KEÇİ QURDU NECƏ ALDATDI

**(Fars xalq nağılı)**

Qış bitmək üzrə idi, ancaq dağlarda qar və buz hələ əriməmişdi. Çobanın arıq və topal bir keçisi var idi. O, sürü ilə buzlu yamaclara çıxa bilmədiyi üçün çoban keçini qoyub getmək məcburiyyətində qalırdı. Axşam sürü otlaqdan gələndə keçi də onların arxasınca arxaca qayıdırdı.

Bir dəfə həmin keçi tək otlayanda canavar onu gördü. Ancaq hücum eləməyə cəsarəti çatmadı. Bilirdi ki, mürgülü köpəklər yuxudan oyansalar, canavara rəhm etməyəcəklər. Ona görə o, hiylə işlətmək qərarına gəldi. Keçiyə yaxınlaşıb şirin dilini işə saldı.

Keçi çox narahat oldu və soruşdu:

- De görüm nə istəyirsən?

- Heç nə. Sadəcə sənə yazığım gəlir. Bir dəri bir sümüksən. Mən yaxşı bir otlaq yeri bilirəm. Ora gedib otlasan, tezliklə kökələ bilərsən.

Söz keçinin ağlına batdı. Ümidlə soruşdu:

- Mən necə kök ola bilərəm?

- Çox sadə. Buradakı ot dadlı deyil. Mən tanıdığım yerdə isə ot qalın və şirəlidir. Ancaq özün bilərsən. Məndən demək.

Sonra o, keçi ilə vidalaşıb, getdi və otlağa gedən yolun üstündə gizləndi.



Qurdun getməsindən ürəklənən keçi yavaş-yavaş otlağa sarı getməyə başladı. Birdən o, qurdu gördü. Canına qorxu düşdü. Ancaq özünü sındırmadı. Qurda dedi:

- Bilirəm məni yemək istəyirsən. Etirazım yoxdu, onsuz da canımdan bezmişəm. Ancaq bir az səbrli ol. Burda məni yesən, səs-küy qopacaq.

Qurd keçi ilə razılaşdı. Onlar birlikdə dağa çıxmağa başladılar. Keçi qabaqda, canavar isə onun ardınca gedirdi.

Keçi qurdun ona ən qısa zamanda hücum etmək üçün bəhanə axtardığını anladı və çox nəzakətlə dedi:

- Tələsmə, ay canavar, onsuz da mən sənin ovunam. Qoy bir az da gedək. Yoxsa köpəklər duyuq düşüb gələr, səni parçalayar.

Onlar yenə də yollarına davam elədilər. Keçi vaxt uzadır, qurd isə onu yeməyə tələsirdi.

Keçi bilirdi ki, çoban qarşıdadır və onun yanına qaçmaq üçün fürsət axtarırdı. Qurd arxaya, kəndə sarı baxanda keçi son gücünü toplayıb qaçdı və sürüyə çatdı.

Ertəsi gün canavar yenidən köhnə yerdə otlayan keçini gördü. Öz-özünə dedi: "Burada çox qurd var, keçi bəlkə də məni tanımadı. Bu dəfə onu aldadıb yeyərəm, qaçmağa qoymaram".

Qurd keçiyə yaxınlaşdı və dərhal onu tanıdı. Ancaq özünü bilməzliyə vurdu. Yenə də buraların otunun dadlı olmadığını söylədi.

Keçi dedi:

- Mən sənə inanmıram.

Qurd dedi:

- Dinlə, keçi, bura dadlı torpaq deyil, daha yaxşı olar ki, burada yox, başqa bir yerdə otlayasan.

Keçi ona cavab verdi:

-Sənə inanmıram. Sözlərini dəlil ilə təsdiqlə, sonra hara desən gedim.

Qurd dedi:

-Mən səni necə inandırım?

-Çox sadə. Hündürə qalxıb səsin gəldikcə ula və and iç ki, bu torpağın otu qətiyyən dadlı deyil.

Qurd razılaşdı:

-Yaxşı, bu asan məsələdir.

Qurd ulayanda köpək mürgüdən oyandı və ona tərəf qaçdı. Səsə kəndin bütün köpəkləri gəldilər və canavarı parçaladılar.

Tərcümə edəni: R.Y.Əliyev

